Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQLƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet №26 (1282) 25 sentyabr 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

## *Yusif SƏMƏDOĞLU - 90*

# QƏTL GÜNÜ

## *və yaxud, bəzən Tanrı da çaşır...*



*Vaqif YUSİFLİ,*
*filologiya elmlər doktoru*

1998-ci ilin 18 avqustunda Fəxri xiyabana daha bir axın, izdiham baş aldı. "Dərd də azar kimi, gələndə batmanla gəlir".

Böyük Azərbaycan yazıçısı Yusif Səmədoğlu əbədiyyət adlı bir mənzilə yol alırdı və o mənzildən heç bir möcüzə bir daha onu bu dünyaya qayırarmıyacaqdı. Səməd Vurğun ocağının ağbirçəyi Xavər xanımın ağlar ana görkəmi artıq bu ocaqda bir çat yarandığından xəbər verirdi. Ancaq insanın hər gün gördüyü, ünsiyyətdə olduğu, illər boyu doğmalaşdığı həmcinsindən əli üzüləndə bir istək də onu tərk eləmir - lap mövhumi də olsa, özünü belə bir fikrə inandırır ki, möcüzə baş verəcək. Vaqif Səmədoğlunun bir şeirində deyildiyi kimi:

Bir gün səslənəcək
və ölüm qədər yaxın,
doğma bir səs eşidəcəm.
Ömrün səslərində bir boşluq səslənəcək,
və mənə gərəksiz olacaq
yer üzünün bütün özgə səsləri.
Və o an
nə sayrışan ulduzların xışıltısı,
nə uşaq gülüşünün parıltısı
daha lazım olmayacaq mənə.
Ölüm qədər yaxın
doğma bir səs eşidəcəm...

Amma o doğma səsi heç bir möcüzə bizə qaytara bilməz. "Yuxunuz şirin olsun, deyirlər!"

Yusif Səmədoğlu deyəndə öncə Səməd Vurğun yada düşür.

Onların şəkillərini yanaşı qoyun, görəcəksiniz ki, natura etibarilə atasına ən çox oxşayan Yusifdir. Təkcə görünüş və natura etibarilə yox, həm də daxilən, ruhən... Təbii ki, biz - qırxıncı illərin sonlarında, əllinci illərdə dünyaya gələnlər Səməd Vurğunu görə bilməzdik. Səməd Vurğunu biz yalnız dilimizin əzbərinə çevrilən şeirlərindən, bu şeirlərin təsiri ilə Azərbaycanı sevən bu torpaqda doğulduğu üçün böyük qürur hissi keçirən atalarımızın, analarımızın, yaşca bizdən irəli bacı və qardaşlarımızın məhəbbətindən sevmişik. Bəli, məhəbbətindən! Çünki uşaq olmağıma baxmayaraq bunu - bu qeyri-adi məhəbbəti hiss etməmək mümkün deyildi. Bizim evdə iki dəfə böyük ağlaşmanın şahidi olmuşam. 1953-cü ildə (onda mənim beş yaşım vardı) - mart ayında "ellər atası" Stalin öldü. İlk ağlaşma onda oldu. 1956-cı ilin mayında Səməd Vurğun öldü və onda da gördüm ki, necə böyük bir müsibət baş verib. Amma tezliklə Stalinin şəxsiyyətə pərəstişi bir kampaniya keçdi, "ellər atası" fəxri zirvədən aşağı yumbalandı, vaxtilə onun ölümünə ağlayanlar heykəllərini yıxdılar. Amma Səməd Vurğun unudulmadı. Çünki Səməd Vurğunu unutmaq azərbaycanlı olduğunu unutmaq demək idi.

Bir haşiyə: 1960-cı ildə, 25 yaşlı Yusif Səmədoğlu ilk hekayələr kitabını çapdan çıxarır: "220 №-li otaq". Cavan yazıcı kitabın birinci səhifəsində yazmışdı: "Atam Səməd Vurğunun əziz xatirəsinə ithaf edirəm."

Əlbəttə, etiraf edək ki, bu kitab ədəbi aləmdə elə xüsusi səs-səda doğurmadı. Müqayisə edib deyə bilərik ki, on üç il sonra cəmi beş hekayədən ibarət ikinci kitab - "Qalaktika" daha sanballı idi. Burada Yusif Səmədoğlu artıq bir hekayəçi kimi püxtələşmişdi. Ancaq söhbət "220 №-li otaq"dan gedir və mən burada "Atam Səməd Vurğunun əziz xatirəsinə ithaf edirəm" sözlərinin kitabdakı hekayələrlə nə dərəcədə səsləşdiyinə işarə etmək istəyirəm.

Bunun üçün həmin kitabdakı iki hekayəyə üz tuturam. "Gözlər" hekayəsi Səməd Vurğunun (hekayədə adı çəkilməsə də Şair odur), reallığına - olmuşluğuna qətiyyən şübhə doğurmayan bir hadisədən söz açır. Ovçu, dostları ilə birgə Q. kəndinə gedir. Sabah sübhdən yenə ova çıxacaqdılar. Şairin kəndə gəlməsini eşidən camaat klubun qabağına toplaşır. Şair görünən kimi hamı ilə hal-əhval tutur,

Və bu zaman... "Cavanların qabağında, on yeddi - on səkkiz yaşlarında ucaboy bir qız başını aşağı salıb dayanmışdı. Qızın alnına tökülmüş qıvrım teli arabir əsən mehdən tərpəşir, qalın çatma qaşlarını sığallayırdı. Həyacanlandığından, yorulduğundanmı qız ağır nəfəs alır, qabarıq sinəsi qalxıb enirdi.

...Şair ağır addımlarla qıza yanaşıb bir an durdu, adəti üzrə yenə əlini saçlarına aparıb qaşlarını çatdı. Bir az dumanlı görünən gözlərində gəncliyə, təbiətin qüdrətinə təşəkkür ifadə edən bir qığılcım yandı. Şairin qıza maraqlandığını görən camaat danışığını kəsdi. Şair mənalı nəzərlərlə bir qızı, bir də dağları süzdü, sönmüş papirosunu yerə tullayıb dedi:

- Qızım, get mənə bir atlama qayır gətir. Gözlərinə şeir yazacağam.

Qız son dərəcə ağır bir hərəkətlə başını qaldırdı. Gözlərinin ikisinə də ağ gəlmişdi. Sanki Şairdən və təbiətdən aman istəyirdi. İşin belə olacağını heç kəs gözləmirdi. Hamı pərişan halda nəzərlərini Şairə dikdi. Şair isə...

Şairsə sarsılmışdı. Bənizi qaralmış, dodaqları titrəyirdi.

...Şair qıza yanaşdı, onu qucaqlayıb başını bağrına basdı. Titrək səslə:

- Qızım, bağışla, - dedi, - görmədim, qızım, bağışla, görmədim!"



Son dərəcə həssas olan, ürəyi kövrəkdən kövrək şair klubda çox qalmır, bu ağır səhnə onu sarsıtdığından şəhərə tələsir.

Və illər keçir, qəlbini sındırdığına görə o qız yadından çıxmır.

Və bir gün, həkimlərin ciddi səyi ilə sağalan o qız şairin yanına gəlir.

Bu hekayədə Yusif Səmədoğlu böyük bir məhəbbətlə xalqın sevimli şairinin - atası Səməd Vurğunun obrazını yaratmışdır.

Məncə, Yusif Səmədoğlunun Səməd Vurğuna münasibətini - oğulun Ataya məhəbbətini açıqlamaq üçün "Gözlər" hekayəsindən daha gözəl mənbə tapmaq çətindir.

O ki qaldı "220 №-li otaq" hekayəsinə, bu hekayə Yusif Səmədoğlunun Səməd Vurğun ideallarına nə dərəcədə sadiq qaldığını göstərən səciyyəvi ədəbi nümunədir. İllər keçdikcə, Səməd Vurğun yaradıcılığına dönə-dönə müraciət etdikcə bir daha aydın olur ki, o, təpədən-dırnağa Azərbaycançı, milliyyətçi, Vətənçi şair idi, hətta "Zəncinin arzuları"nda da, "Zamanın bayraqdarı"nda da Səməd Vurğun Azərbaycan ruhundan bir addım belə geri çəkilməmişdir.

"220 №-li otaq" hekayəsinin qəhrəmanı da başdan-ayağa patriotdur, bütün varlığı ilə Azərbaycana bağlıdır. Moskvada təhsil alan dostunun birdən-birə dəyişməsi (adət-ənənələrimizə dodaq büzməsi, tarı yox, saksafonu və trubanı sevməsi, rus qızlarına "məftun" olması) onun mənliyinə toxunur, ironiya ilə "Bizdən Azərbaycana salam!" deyən dostlarından əbədi ayrılır.

"Komendantdan pasportunu geri alanda o qoca kişi diqqətlə üzümə baxdı və soruşdu:

- Orada heç kim qalmadı? Yoxsa, gecdir, yatmaq vaxtıdır.

*(Davamı 3-cü səhifədə)*

# QƏTL GÜNÜ,
## yaxud hərdən Tanrı da çaşır

*(Əvvəli 1-ci səhifədə)*

Mən nə etdiyimi bilmirdim. Yazıq qocanın üstünə qışqırdım:

- Xeyr, qaldı! Bir fahişə qaldı, bir də o fahişəyə oxşayan iki oğraş!.."

Ancaq Yusif Səmədoğlu ruhən, necə deyərlər, kök və qan qrupca Səməd Vurğuna nə qədər oxşasa da, öz taleyini yaşamışdır. Onlar XX əsrin bir-birindən fərqli iki zaman qütbündə yaşamışlar. 1956-cı ildə 50 yaşını adlamış Səməd Vurğun artıq illər boyu çəkdiyi mənəvi əzablardan, açıq və gizli təqiblərdən, "qazandığı" xərçəngdən vəfat etdi.

Bu zaman Yusif Səmədoğlunun 21 yaşı vardı. Səməd Yusif oğlu həyatında çox-çox müsibətlərlə üzləşmişdi, o, böyük şöhrət pyedestalına bu müsibətlərdən keçə-keçə yüksəlmişdi. Uşaqkən anasını, sonra atasını itirmişdi. Yoxsulluq və ehtiyacla üz-üzə qalmışdı. Bəy oğlu idi, amma yeni quruluş ona bəy kimi yaşamağa heç fürsət vermədi, əlində silah götürüb komsomollarla bir sırada bəylərə qarşı mübarizəyə qalxdı. İlk sevgisi uğursuz oldu. Şeir aləmində çox tez parladı, ancaq heç vaxt başından qeyli-qal əskik olmadı. Böyük şair kimi etiraf olunsa da, Mircəfər Bağırovun açıq və gizli təqibləri, qəzet və jurnal səhifələrində ünvanına yağdırılan hücumlar həmişə yoluna çıxdı. Cavid, Müşfiq, Əhməd Cavad - onlarla gözəl ziyalılar sürgünlərdə məhv oldular, güllələndilər. Səməd Vurğun isə yaşaya-yaşaya bu sürgünlərdən keçdi. Ancaq bütün bu görünən və görünməyən tərcümeyi-halı ilə Səməd Vurğun elə sağlığında xalqın ürəyində öz möhtəşəm heykəlini ucaltdı.

1956-cı ildə Səməd Vurğun vəfat edəndə dövr, zamanə artıq mülayimləşmişdi, ölkədə Stalinin şəxsiyyətə pərəstişi bir nömrəli tənqid hədəfinə çevrilmişdi, xalq, deyəsən, rahat nəfəs almağa başlayırdı. Moskvada, Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil alan Yusif Səmədoğlu sonuncu kursu Bakıda - ADU-nun filologiya fakültəsində başa çatdırdı. Sonra isə qəzet və jurnal redaksiyalarında əməkdaşlıq etməyə başladı.

Və gəlin həqiqəti olduğu kimi söyləyək. Altmışıncı illərdə Yusif Səmədoğlu artıq bir kitabın və bu kitaba düşməyən bir neçə hekayənin müəllifi olsa da, öz yaşıdları arasında seçilmədi. Bunun mənim fikrimcə, iki səbəbi var. Birincisi, Yusif Səmədoğlunun yazıçı təbiətiylə bağlıdır. Bütün ömrü boyu o, çap olunmağa tələsmirdi, əgər belə demək mümkünsə, Yusif Səmədoğlu görünməməyə çalışırdı. Görünənlər - Yusif yaşlılar hər 3-4 ildən bir öz ədəbi məhsullarını kitab kimi çap etdirirdilər, başqa dillərə əsərləri tərcümə olunurdu, təbii ki, buna layiq idilər. Ancaq nə etmək ki, Yusif az yazırdı, belə "məhsuldarlığı" yox idi. Mən deyərdim, o, Azərbaycan ədəbiyyatında bir bəy --- bir kübar həyatı keçirirdi. İstəyəndə yazırdı, istəməyində yazmırdı. Amma elə dövrdə - yazmadığı illərdə də heç kəs onun istedadlı olduğuna qətiyyən şübhə etmirdi.

İkincisi: Yusif Səmədoğlu az yazsa da, bəzi yazılarını çapa verirdisə, bunları QLAVLİT geri qaytarırdı. Yaxşıca xatırlayıram ki, indicə adını çəkəcəyim bir hekayə düz üç dəfə müəllifin özünə qaytarıldı.

İkinci haşiyə: 1987-ci il "Ulduz" jurnalının ikinci nömrəsində Yusif Səmədoğlunun 20 il əvvəl 1967-ci ildə qələmə aldığı "Bayatı-Şiraz" hekayəsi işıq üzünü gördü. Bu bircə hekayə sübut etdi ki, Yusif Səmədoğlu bir nasir kimi elə 60-cı illərdə püxtələşmişdi. Ancaq o zaman bu hekayə çap oluna bilməzdi. Hekayədə QLAVLİT-in asanlıqla rədd edə biləcəyi situasiyalar, məqamlar az deyildi. Xatırladaq ki, 60-cı illərdə Azərbaycan nəsri yeni bir mərhələyə qədəm qoymuşdu, cəmiyyətdə yaranan müəyyən liberalizm, cirə ilə də olsa verilən demokratiya ədəbiyyata da təsirsiz qalmamışdı. Ancaq ədəbiyyatda sovet ideologiyası hələ sarsılmamışdı və bu ideologiyaya azacıq müxalif səslənən hər hansı bir ifadə, cümlə, yaxud geniş mənada Sistemin arzulamadığı ədəbi qəhrəman, Sistemin doğmalarına toxunan məqamlar heç cür qəbul oluna bilməzdi.

Əsərin qəhrəmanı Səbzəli dayı o dövrün ədəbi qəhrəman meramına heç cür uyğun gəlmirdi. Bədbəxt bir insan - restoran çalğıçısı, hər gün tavada bir yumurta qayğanaq edib, öz mənasız çalğısıyla (kontrabasda) yeyib-içənləri əyləndirən, bəzən də gülüş hədəfinə çevrilən bu qoca zavallı müharibə illərində "Hitleri tərifləDiyi" üçün (bunu zorla boynuna qoyurlar) üç-dörd il qazamatda yatır. Belə bir insan ədəbi qəhrəman ola bilərdimi? Sovet ədəbiyyatının ənənələri belə bir qəhrəmanın varlığını inkar edirdi. Hekayənin finalı daha təsirlidir. İki pullu şəxs Səbzəli dayıdan kontrabasda "Bayatı-Şiraz" çalmağı xahiş edir və o... canını dişinə tutub iki əlliliyin xətrinə belə bir biabırçılığa gedir.

"Yüz manat - iki dənə şah əllilik qoltuq cibində, almaq istədiyi ucuz televizorun xəyali gözləri qabığında Səbzəli dayı yavaş-yavaş yol gedirdi.

Az getdi, üz getdi, sevindiyindən birdən başını yuxarı qaldırdı. Qaldırdı ki, baxsın görsün yuxarılarda nə var, nə yox?

Uca binaların zil qara siluetləri arasından parıltılı ulduzlarını əhatəsində süd yolunu gördü. Təəccüb elədi. Çünki əlli ildən yuxarı idi ki, süd yolunu görməmişdi. Dayanıb, əlləri cibində doyunca tamaşa etdi. Birdən Səbzəli dayını ağlamaq tutdu. Ta ürəyi boşalanacan ağladı..."

Hekayə beləcə tragik bir sonluqla bitir. Və hər sətrində yazıçının Səbzəli dayıya rəğbəti duyulan hekayədə yaşadığımız o dövrkü cəmiyyətin bütün eybəcərlikləri böyük ustalıqla canlandırılmışdı. Daha dəqiq, o cəmiyyətin bütün mənəviyyatı onun kiçik bir modelinə - o balaca restorana sığışdırılmışdı.

1987-ci ildən Yusif Səmədoğlu "Azərbaycan" jurnalında baş redaktor kimi fəaliyyətə başladı. Bu, mənim gördüyüm üçüncü baş redaktor idi. Öncə Əkrəm Əylislini görmüşdüm, onun "Azərbaycan" jurnalında sözün həqiqi mənasında apardığı ədəbi islahat çox keçmədən öz barını verdi və bu ədəbi islahat - jurnalda və ədəbi mühitdə yaranan canlanma çox böyük müqavimətlə üz-üzə gəldi. Mən deyərdim, bu ədəbi islahat o qədər vaxtında baş verdi ki, nəhayət, deyəsən, biz cavanlar ədəbiyyatın nə olduğunu dərk etməyə başladıq. Ancaq Ə.Əylisli kimi mübariz bir redaktor da qarşı tərəfin aramsız hücumları qarşısında tərki-jurnal oldu.

Sonra Cabir müəllim gəldi. Təbiətən mülayim, həmişə "barişdırıcı", loyal mövqeyi ilə seçilən Cabir müəllim nəyəsə nail olmağa çalışdı. Təbii ki, o bu yolda heç bir müqavimətlə üzləşmədi. Sonra Yusif Səmədoğlu gəldi. Düz 10 il baş redaktor... Yusif Səmədoğlu nə Ə.Əylisli kimi "davakar", nə də Cabir Novruz kimi mülayimdi. Yusif müəllim, əgər belə demək mümkünsə, baş redaktor kimi, ədəbiyyatda hər kəsin öz istedadı müqabilincə nəyi varsa ortaya çıxarmağın tərəfdarıydı. "Azərbaycan" jurnalı Azərbaycan ədəbiyyatının güzgüsüdürsə, yaşından və istedadının səviyyəsindən asılı olmayaraq hamı burada çap olunmalıdır. "Hamı" deyəndə təbii ki, çoxluq, ədəbi kütlə yox, ədəbi zövqlərini qəbul etdiyi professionallar nəzərdə tutulur. Əlli ilin yazıçısı, ya xalq şairi, lap elə müasir bədii idrakla ayaqlaşmasa da, niyə professional sayılmasın? Ancaq təbii ki, ədəbiyyat heç vaxt istedad sarıdan korluq çəkməyib və Yusif Səmədoğlu da dönə-dönə bizə tapşırardı ki, jurnalda başlıca diqqəti məhz bu istiqamətə yönəldək. Və beləliklə, bəzən jurnalda çox qəribə bir mənzərə yaranardı: qırx ilin professionalı və onun ardınc sanki onu inkar edən cavanca bir şairin, ya nasirin təptəzə yazıları... Qoy huşyar oxucu özü ağı qaradan seçsin!

Çox yaxşıca xatırlayıram: 1987-1994-cü illərdə Yusif Səmədoğlunun kabineti qarşısında həmişə bir canlanma görərdim. O illərin dərdli adamları, yerindən-yurdundan didərgin düşənlər, haqqı alınanlar Yusif qağadan nəsə umurdular. Nə idi bu? Fikirləşirdim ki, ah, bu insan nə qədər böyük yazıçı olsa da, bu qədər adama necə kömək edə bilər? Amma Yusif Səmədoğlu iynənin ucu boyda bir güman yeri vardısa, köməyini, qayğısını əsirgəmirdi.

O həvəcanlı illərdə Yusif Səmədoğlu Azərbaycan xalq hərəkatının liderlərindən birinə çevrildi. Mən heç bir siyasi hərəkətin iştirakçısı olmayan, heç bir siyasi partiyaya rəğbət bəsləməyən adi bir vətəndaş kimi qətiyyətlə deyirəm: əgər Yusif Səmədoğlu kimi üç-dörd sözü ötən ziyalı olmasaydı, o zaman Azərbaycan xalq hərəkatı bu qədər vüsət almazdı. Və yaxşı xatırlayıram: Azərbaycan Xalq Cəbhəsi rəsmi dairədə bir təşkilat kimi qeydiyyatdan keçəndən sonra Yusif Səmədoğlu televiziyada müsahibələrinin birində öz sevincini böyük bir vəcd ilə ifadə etdi. Amma sonra bəylərlə Yusif Səmədoğlu arasında bir anlaşılmazlıq, bir soyuqluq yarandı. "Qətl günü"ndə insan psixologiyasının alt qatlarını bədii sözün işığına çıxaran Yusif Səmədoğlu üçün beş-üç "lider"in hansı məzhəbə qulluq eləməsi və hansı iddialarla yaşamasını bilmək o qədər də çətin deyildi. Ancaq Yusif Səmədoğlu siyasət meydanından çəkilmədi, Milli Məclisdə, ali kürsülərdə öz sözünü dedi. Və sübut elədi ki, kəskin yazıçı ağlı nəinki insanların, insanlararası, dövlətlərarası münasibətlərin də dərinliklərinə baş vurmağa qadirdir. Yeri gəlmişkən qeyd edim ki, bu gün Milli Məclisdə bəlkə də qədərindən artıq şair, yazıçı, artist - sənət adamı var. Onların çoxu, nəsə söz deyir (ağızına su alıb susanları da az deyil). Və sadədilliklə fikirləşirsən ki, bu "bədii məclis" poeziyada neçə gözəl şeirin, poemanın, hekayənin, povestin, romanın, yaxud misilsiz bir rolun bətnindəcə boğulması deməkdir, onda təəssüflənirsən. Bəlkə bu fikri eyni sadədilliklə Yusif Səmədoğlu barədə də söyləmək olardı. Amma Yusif Səmədoğlunun istedadı "Milli Məclis" dramında sadəcə seyrçi olmağa yox, güclü personaj olmağa da yetərdi.

Allah, bir az da möh-lət ver,  
Öldürmə, sağ saxla yenə.  
Beş-on yazılmamış şeirim  
Beş-on duam qalib sənə...  
(Vaqif Səmədoğlu)

Ölümündən sonra hələ ki, Yusif Səmədoğlunun arxivi barədə heç bir məlumat yoxdur. Bu arxivdən bizə məlum olmayan hansı əsərlər üzə çıxacaq? "Deyilənlər gəldi başa" romanı və ondan əvvəl bir povesti haqqında söhbət etmişdi bizə. Daha nələr, daha nələr... Sözsüz ki, bu yeni əsərlər Yusif Səmədoğlunun yazıçı portretinə necə yeni ştrixlər, boyalar, cizgilər artıracaq, amma o portretin əsas cizgiləri dəyişməyəcək.

Mən "Qətl günü"ndən danışmadım. Düz 40 ildir bu romanı dönə-dönə oxuyuram və hər dəfə də mənə elə gəlir ki, onu oxuyub qurtarsam da, başa çatdıra bilməyəcəyəm. Oxuyub başa çatdıra bilmədiyim üç əsərdən biridir "Qətl günü". Birincisi ağlımın və hissiyyatımın tam yetə bilmədiyi Füzuli qəzəlləridir, ikincisi heyrətimin tükənmədiyi "Hop-hopnamə"dir. Üçüncüsü də "Qətl günü".

"Qətl günü", əgər belə demək mümkünsə, sovet dövrü ədəbiyyatının artıq öz magistralından xeyli kənara çıxdığı dövrdə yazılıb (1981-1984). Doğrudur, 60-80-ci illərdə sovet ideologiyası ötən onilliklərlə müqayisədə öz başlıca funksiyasını - "qalib sovet adamı"nın obrazını yaratmaq missiyasını əvvəlki tərzdə reallaşdıra bilmirdi. Azərbaycan nəsrinin göstərilən dövrdə bir çox nümunələri (İ.Şıxlının, S.Əhmədlinin, İ.Hüseynovun, Anarın, Ə.Əylislinin, İ.Məlikzadənin, Elçinin və başqalarının əsərləri) heç bir mənada "qalib sovet adamı"nın stereotipinə sığmırdı. Əgər belə demək caizsə, Azərbaycan nəsrində Müstəqillik bayrağı dalğalanırdı. Bu fikri həm nəsrin özünün qart ideologiyanın təsirindən tədricən uzaqlaşıb, müstəqil "status" qazanmasında (yəni artıq bu nəsr çalınan havaya oynamırdı), həm də xalqın müstəqillik duyğularının oyanışında izləmək mümkündür.

"Qətl günü" məhz bu mənada Azərbaycan nəsrinin əllinci illərinin sonlarından başlanan müstəqillik meyllərini (yenə hər iki mənanı nəzərdə tuturam) ifadə edən ən bariz ədəbi nümunə oldu. Çox vaxt bu əsərdən söz açanda Q.Q.Markesin "Yüz ilin tənhalığı" və Ç.Aytmatovun "Edam kötüyü" romanlarını ortaya gətirirlər. Şübhəsiz, hər üç əsərdə bir-birilə səsləşən məqamlar (tarixə, dünyaya optimist fəlsəfi baxış, milli bədii düşüncənin ümumbəşəri səviyyədə qavrayışı, bir əsrin və bir xalqın tarixi faciələrinin bir obrazda təcəssümü) diqqətdən yayınmır, lakin "Qətl günü" sırf Azərbaycan romanıdır. Ona görə ki, bu əsərdə Azərbaycanın xalqının üç əsrdə keçdiyi tarixi yol bədii idrak işığıyla ümumiləşdirilir. Və ona görə yox ki, romanda Şərq tipi daha üstündür (mifoloji ünsür romanın canına-qanına hopub. Başlıcası, o səbəbdən ki, bu əsərdə milli dastançılıq və romançılıq ənənələri üzvi şəkildə qaynayıb-qarışır. Yəni, "Qətl günü" əlahiddə meydana çıxan, necə deyərlər, havadan yaranan əsər deyil. Ənənə üstünə yaranan, ancaq ənənələri fövqəladə dərəcədə, misilsiz bədii ustalıqla novatorluq mislinə yüksəldən "Qətl günü" məhz buna görə səksəninci illər Azərbaycan ədəbiyyatının ən uğurlu ədəbi hadisəsinə çevrildi.

Yusif Səmədoğlu mənim və mənim kimi yüzlərin, minlərin, on minlərin sevdiyi, Azərbaycan və Səməd Vurğun qədər uca tutduğu, sözünü Tanrı sözü qədər əzizlədiyi böyük bir insan idi. Bu İnsan dərk olunana qədər dərkolunmazdı. Bizim tanıdığımız Yusif Səmədoğlu tanımadığımız, dərk etmədiyimiz Yusif Səmədoğlunun üzdə görünən hissəsidir.

Vəssalam... Yusif Səmədoğlu haqqında bu qədər və bir də Vaqif Səmədoğludan bu misralar:

Bir uşaq oynayır,  
Oynayır özü kimi əlvan  
otlarını, çiçəklərini arasında.  
Günəş baxır göz qırpmadan  
Yoxdur qocalıq yer üzündə, yoxdur!

**2025**